AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
TƏHSİL PROBLEMLƏRİ İNSTİTUTU
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

E.M.HACIZADƏ H.Q.ƏHMƏDOV

# SOSİAL SORĞU PROSESİNİN KEÇRİLMƏSİNƏ DAİR METODİK GÖSTƏRİŞ

BAKI-2003

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN RESPUBLİKASI NIN TƏHSİL PROBLEMLƏRİ İNSTİTUTU**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

# SOSİAL SORĞU PROSESİNİN KEÇRİLMƏSİNƏ DAİR

## METODİK GÖSTƏRİŞ

Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi-Metodik Şurasının «Sosial siyasi elmlər» bölməsinin 03.07.2003-cü il tarixli iclasının qərarı ilə təsdiq edilmişdir. /*protokol* №09/

**BAKI-2003**

## METODİK GÖSTƏRİŞİ TƏRTİB ETMİŞLƏR

Azərbaycan Dövlət İqtisad Universitetinin «Sosial-iqtisadi elmi-tədqiqat» laboratoriyasının mudiri, iqtisad elmləri namizədi

**E.M.Hacızadə**

Azərbaycan Dövlət İqtisad Universitetinin «Politologiya və sosiologiya» kafedrasının dosenti, fəlsəfə elmləri namizədi

**H.Q.Əhmədov**

## REDAKTOR

ADİU-nin elmi işlər üzrə prorektoru, Azərbaycan Respublikasının əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor,

**A.Ş.Şəkərəliyev**

## METODİK GÖSTƏRİŞƏ RƏY VERMİŞLƏR

ADİU-nin «İstehsal vasitələrinin marketinqi» kafedrasının müdiri, i.e.d., professor **Ş.Ə.Axudov**

Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasınının ixtisasartırma və yenidənixtisaslaşma fakültəsinin dekanı, f.e.d., professor **Ş.C.Qasımlı**

ADİU-nin «Rolitologiya və sosiologiya» kafedrasının dosenti, f.e.n., **X.H.Orucov**

*Metodik göstəriş sosial tədqiqatlara yardım edən sosioloji sorğunun gerçəkləşməsini təlimatlandıran missiyanı ifadə edir. Burada sosioloji sorğünün mahiyyəti, konseptual əsaslarının geniş şərhi verilir, prosesin konseptualizasiyası, sxematizasiyası, planlaşdırılması, kodlaşdırma və emal prossedurları, sorğu anketinin tərtibatı, intervyuyerin treninqi və təlimatlandırması və digər sorğu prossedurları metodik düzümdə təqdim olunur.*

*Azərbayjan Dövlət İqtisad Universitetinin «Sosial-iqtisadi elmi-tədqiqat» laboratoriyasında aparılan sosial sorğu proseslərinin səmərəli təşkilinə və reallaşdırılmasına metodoloji yardım məqsədli müvafiq metodik göstəriş, həmçinin sosial sferada tədqiqatlar aparan digər təşkilatlar və mütəxəssislər üçün də nəzərdə tutulmuşdur.*

# MÜNDƏRİCAT


| | |
|---|---|
| Giriş | 05 |
| 1.Sorğu prosesinin mahiyyəti və konseptual əsasları | 07 |
| 2.Sorğu prossedurları və mərhələləri | 08 |
| 3.Konseptualizasiya və sxematizasiya | 10 |
| 4.Sorğu alətlərinin hazırlanması | 11 |
| 5.Sorğu anketinin tərtibatı | 13 |
| 6.Planlaşdırma və seçim düzümü | 16 |
| 7.Təlimatlandırma, personalın treninqi və ilkin testləndirmə | 19 |
| 8.Sorğunun keçirilməsi və monitorinqi | 20 |
| 9.Kodlaşdırma və emal | 20 |
| 10.Sorğu məlumatlarının təhlili və hesabatın hazırlanması | 21 |
| İstifadə olunan ədəbiyyat siyahısı | 22 |

# GİRİŞ

Cəmiyyətin sosial-iqtisadi həyatında qlobal miqyasda geniş empirik nəzəri-metodoloji nailyətlər əldə olunmuşdur. Həyatı yaşayışın yüksələn templəri ilə müşaiyət olunan insan sosiumunun dinamikası çağdaş zamanda toplanmış təcrübə əsasında elmi axtarışları və tədqiqatları daha məzmunlu, müasir stil və texnologiyalı formada aparılmasını şərtləndirir. Həyatın qarşıya qoyduğu bir sıra sualları məhz elmi tədqiqatlar cavablandırır. Bu cavab axtarışında statistik toplumlu informasiyaları konkret məlumatlarla təchiz edən sosial tədqiqatlar məxsusi yer tutur. İnsanların düşünjə və ovqatı, həyat planları, əməyin təşkili, məişət və asudə vaxtın təəssüratları, mənəvi-psixoloji mühit haqqında bilikləri sosial tədqiqatlar sferasında akkumlyasiya olunaraq yenidən ijtimai fondun sərənjamına verilir. Çeşidli sosial tədqiqat metodları içərisində sorğu prosseduru daha geniş intişar tapan və tətbiq edilən forma kimi fərqlənir.

Sorğu ilkin sosioloji informasiyaların təyin edilmiş prinsiplər əsasında, suallar formatında respondentin cavablarına köklənən tədqiqat metodudur. Sorğu metodu sosioloqların ixtirası deyildir. Müvafiq xarakterli məlumat almaq üçün insanlara suallarla müraciət etmək bütün bəşəri elm sahələrinə xas olan jəhətlərdəndir. Tədqiqat hadisəsində bilavasitə iştirakçı olaraq informasiya mənbəyi kimi insan çıxış edir. İnformasiyanın alınması onun maraq və təcrübəsi ilə bağlıdır. Bu informasiyalarda sosial reallıq fərdi şüurda ifadə olunur. Sorğu prosesində əksini tapan sosioloji tədqiqatların optimallığının, informasiyaların verifika-siyasının təminatı metodoloji aspekti önə çıxarır. Sorğu prosesinin hazırlanması və reallaşdırılması müvafiq metodik tövsiyyələr əsasında nizamlanır.

Müəlliflər qrupu tərəfindən təqdim edilən müvafiq təyinatlı metodik tövsiyyə sorğu aktının prossedur və reqlamentasiyasını, intervyuyerin marşrut və təlimat planını, ehtimal olunan respondentin isə uyğun bilgili məlumatlarla zənginləşdirilməsi məqsədini daşıyır. Nəzəri və praktiki müstəvidə ahəngləşən terminoloji vahidliyə riayət olunmanı saxlamaqla mövcud metodik vəsait normativ-hüquqi aktlar, beynəlxalq aləmdə geniş yayılmış sorğu texnologiyaları və sterotipləri əsasında işlənərək hazırlanmışdır. Sosioloji sorğunun mahiyyəti, konseptual əsasları, onun elmi interpretasiyası, sorğu prossedurları sistemi təqdim olunan metodik vəsaitdə əksini tapmışdır.

# I. SORĞU PROSESİNİN MAHİYYƏTİ VƏ KONSEPTUAL ƏSASLARI

Müasir məqamda insanların hərəkət və düşünjələrinin nədən ibarət olduğunu bilməyin yeganə üsulı bu ovqatın onların özlərindən sorulmasında gerçək ifadəsini tapır. Faktın reallığı çağdan sosial elmlərin ən geniş yayılmış metodlarından biri kimi, sorğu prosesinin təzahür etməsi və geniş intişar tapmasına gətirmişdir. Sorğu prosesi konkret sosioloji tədqiqatlarda sınanmış və ən çox istifadə olunan metodlardan biridir. Bu metodun səmərəliliyi onun özünəməxsus universallığı ilə izah olunur. Müşahidə metodunun köməyi ilə tədqiqatçı fərdin indiki zamanda real davranış faktlarını qeyd edirsə, sorğu metodunun vasitəsilə o, fərdin subyektiv rəyləri əsasında onun keçmişdə və hal-hazırda davranış motivləri, real hərəkət, niyyət və gələjək planları haqqında məlumat ala bilir. Sorğu prosesi ünsiyyət müxtəlifliyinin seqmenti olaraq bir sıra şərtlər və vəziyyətlər sistemi ilə əhatə olunmuşdur. Sorğu zamanı respondentin psixoloji durumu, situasiya və ünsiyyət iqliminin münasibliyi vacib və ən əhəmiyuətli şərtlərdən hesab olunur.

Sorğu prosesində əməliyyat vasitəsi kimi, suallar xidmətdə bulunur. Məlumat və göstəricilərin yığım metodu olaraq sorğu prosesi birbaşa əhali qruplarının nümayəndələrindən onların cavabları əsasında informasiyaların toplanması ilə mümkün tam və ya fraqmental ümüdlü ümumiləşdirmə və nəticələrin alınmasını ifadə edir. Belə informasiyalar əyani, telefon müsahibəsi, anket sorğusu və digər adekvat üsullarla alına bilər. Nəzərdən keçirilən bütün bu sorğu variantları müvafiq prosesin strukturunu və metodoloji təməlini təşkil edir. Sorğu müsahibəsini aparan ***interviyuyer***, cavab verən şəxs ***respondent*** adlanır.

Tədqiqatçıya sorğu beş tipdə məlumat ünvanlayır:

- fakt;
- bilik */perceptions/*;
- fikir və düşünjə */opinions/*;
- münasibət */attitudes/*;
- davranış hesabatlandırılması */behavioral reports/*.

***Faktlar*** silsiləsinə digər məlumatların interpretasiyasına yardım edəjək respondentin bioqrafik rekvizitləri */yaşı, peşə növü, doğum yeri, siyasi mənsubiyyəti və sair./*, ***biliklərə*** onun ətraf dünya haqqında mühakimələri, ***fikir*** və ***düşünjə*** çevrəsinə isə müəyyən predmet və hadisələr üzrə üstün baxışları aid olunur. ***Münasibətlər*** silsiləsinə respondentin fərqli dayanaqlı əhvalı və müəyyən hadisə və ideyaların qiymətləndirilməsindəki mövqeyi şamil edilir. ***Davranış hesabatlandırılması*** respondentin bu və ya digər təzahürdə təsdiqini */nejə səs verir, siyasi təşkilatlarda iştirak təzahürü, mətubata münasibəti və sair/* səciyyələndirir.

## II. SORĞU PROSSEDURLARI VƏ MƏRHƏLƏLƏRİ

Sorğu tədqiqatı bir sıra prossedurları əhatə edir. Mərhələli təsnifatda bu prossedurlar aşağıdakı düzümdə verilə bilər:

- ***konseptualizasiya*** - tədqiqat məqsədinin təyinatı, hipoteziyaların irəli sürülməsi, mövcud sorğuda əməliyyat müvafiqliyinin dəqiqləşdirilməsi;
- ***sxematizasiya*** - sorğu zamanı tətbiq ediləjək prossedurların təyinatı və tələb olunan seçimin xarakterinə uyğun qərarın qəbul edilməsi;
- ***vasitə və alətlərin hazırlanması*** - müsahibə anketinin və ya blankının tərtibatı, sual sayının və qaydasının təyinatı, əyani vəsaitlərin hazırlanması;

- ***planlaşdırma*** - sorğu ilə bağlı maliyyə, inzibati, material-texniki kadr və digər müvafiq problemlərə baxış;
- ***seçim düzümü*** - tədqiqatın məqsəd, vasitə və metodlarına uyğun olaraq ehtimal edilən respondentlərin seçimi;
- ***təlimatlandırma*** - respondentlər, məlumatların toplanması üzrə intervyuuerlərin, kodlaşdırıcıların və dijər xidmətedici personalın hazırlanması və onların zəruri material vasitələri ilə təjhizi;
- ***ilkin testləşdirmə*** - kiçik miqyasda, seçilmiş vasitə və alətlərin sınanması məqsədini daşıyaraq respondentlərin təlimat və sualları düzgün əxz etməsini və eyni zamanda onların gözlənilən cavablar tipinə uyğunluğunun yoxlanması;
- ***sorğu*** - pilot təyinatlı alətlər tətbiq etməklə prosesin iştirakçılarının poçt, telefon və ya əyani sorğulandırılması;
- ***monitorinq*** - soruşulanlara tətbiq edilən metodikanın səhihliyinin yoxlanışı və sorğu subyektlərinin sualları məhz özləri tərəfindən cavablandırımasına nəzarət;
- ***yoxlama-nəzarət*** - respondentlərlə əlavə əlaqələr yaratmaqla anketlərin doldurulması və qaytarılmasının nəzarətini təmin etmək;
- ***kodlaşdırma*** - məlumat göstəricilərinin rəqəmlər formasına keçirilməsi;
- ***emal*** - məlumatların çeşidlənməsi və hazırlanması;
- ***təhlil*** - məzmunlu nəticələrin alınması məqsədi ilə statistik və digər müvafiq vasitələrlə göstəricilərin təhlili;

- ☸ ***hesabatın hazırlanması*** - tədqiqat hesabatı formasında təhlil nəticələrinin ifadə olunması.

Sorğu prosesinin aparılmasını təşkil edən bu mühüm mərhələlər ayrı-ayrılıqda və ya qruplar formatında müvafiq geniş prossedurlarda əhatə olunurlar.

## III. KONSEPTUALİZASİYA VƏ SXEMATİZASİYA

Sorğu prosesinin ilk və mühüm mərhələsində empirik öyrənmə sferasında tətqiqatın ən ümdə məsələləri konseptualizasiya əksini tapır. Konseptualizasiya mərhələsində qəbul edilən qərarlar digər mərhələlərdə işlərin müvəffəq təşkilində əhəmiyyət daşıyır. Bu məqam xüsusən sxematizasiya və seçim düzümü prosesində daha önəmlidir.

Sorğu məqsədlərinə görə aşağıdakı təsnifata malikdir:

- ***axtarış*** - tədqiqat suallarının dəqiq formalaşdırılması, öyrənilən hadisələr üzrə məlumatlar kifayət etmədikdə isə hipoteza üçün lazımi informasiyaların toplanması;
- ***təsvir*** - təbəllüdatlar nəzəriyyəsində mühüm olan dəqiq ölçmələrə yardım edir, lakin bununla belə onun rabitə səbəbləri haqqında nəticələr çıxarılmasını əsaslandırmır;
- ***izahedici*** - rabitə səbəbləri ehtimalının yoxlanmasına və müvafiq nəzəriyyə işığında müşahidə olunan qanunauyğunluqların anlaşılmasına yardım edir.

Sosial təyinatlı sorğular çox zaman spesifik təyinatlı məqsədlər daşıyır. Bu məqsədlər konfiqurasiyası aşağıdakıları ehtiva edir:

- ***informasiyon*** - qərar qəbuletmənin optimal korreksiyası üçün aparılır;
- ***diaqnostik*** - elektoratın vəziyyətini, müəyyən hadisələrə təsir edən amillərin araşdırılmasını təyin etmək üçün;
- ***proqnostik*** - elektoral situasiyalar və onların nəticələrinin proqnostikası məqsədini daşıyır;

➢ ***nəzarətedici*** - səmərəliliyi artırmaq hədəflidir.

Aparılan prosesdə sorğunun özünün təşkili görüləjək tədbirlərin önündə gedir. Burada dilemma ***çarpaz*** və ***lonqityud*** variantları üzərində jərəyan edir. Çarpaz sorğuda proses obrazlı deylimdə hərəkət edən obyektin ani çəkilişi üzərində qurulur və burada məlumatlar toplanışı yalnız bir dəfə aparılır. Lonqityud sorğu isə bir dəfədən çox olaraq reallaşdırılır və aşağıdakı tədqiqat sferalarını əhatə edir:

- **Trend -** ayrı-ayrı zaman kəsiyində eyni toplumu təmsil edən müxtəlif seçim qruplarının üzviləri sorğulandırılır. Burada hər bir sorğu prosesində fərqi şəxslər çıxış edə bilər. Bununla belə tədqiqat nəticələri reprezentativ olaraq bir və yaxud da həmən toplumun ümumi meylini ifadə edəcək. Hər qaydalı seçim düzümü toplumda olan digər seçimlərə ekvivalentdir.
- **Koqort** - trend tədqiqatından fərqli olaraq burada fərdi və spesifik qrupların davranışı hədəf seçilir, əhalinin böyük hissəsinə və ya ümumilikdə əhaliyə münasibətlər zəminində tədqiqatlar aparılır;
- **Panel -** burada eyni seçim qrupları müxtəlif zaman anlarında tədqiq edilir. Belə məqam imkan verir ki, hansı qrup üzvlərinə dəyişikliklər şamildir. Prosesdə müvafiq dəyişikliklərlə əlaqədar respondentin şəxsiyyəti və təcrübi keyfiyyətləri də təyin olunur.

## IV. SORĞU ALƏTLƏRİNİN HAZIRLANMASI

Sorğunun hər hansı sxem seçiminə varmadan müvafiq ölçmələr aparmaq məqsədi ilə hökmən suallar şəbəkəsi işlənilməlidir. Bu prossedur konseptualizasiya mərhələsində başlanğıj alan məqsədin əməliyyatlı gerçəkləşdirən vasitə və alətlərin hazırlanmasında ehtiva olunur. Vasitə və alətlərin hazırlanması aşağıdakıların nəzərə alınmasını şərtli edir:

- məzmun;
- tip;
- forma;
- sözlu ifadə;
- suallar qaydası.

Sualın məzmunu tədqiqat probleminə müvafiq cavabın alınmasını əks etdirməlidir. Buna görə də sual seçimləri elə formatda qurulmalıdır ki, zəruri və arzu edilən informasiyaların alınması maksimal təmin edilsin. Suallar blokunun struktur düzümü həmçinin informasiyaların emal və təhlili prosesində mürəkkəbliklər yaratmamalı, tədqiqatın nəticəliyinə xidmət və yardım etməlidir. Respondenti çətinliklərə salmamaq məqsədi ilə verilən suallar lakonik və aydın olmalıdır. Sualların yığjaq və qısalıq orientasiyası məqsədə nailolmada məhdudiyyətlərə gətirməməlidir. Əyani 45, telefon müsahibəsi isə 20 dəqiqəlik vaxt parametrlərini aşmamalıdır. Poçtla göndərilən anket səhifələrinin isə 4 vərəqdən çox olmaması məqsədəuyğundur.

Tədqiqat sualları ***spesifik*** və ***ümumi***, fon xarakterli olaraq iki konfiqurasiyada təzahür edir. Ümumi suallar dəqiqləşmələr, axıcılıq və məntiqi yekunu təmin etmək məqsədi ilə anketə daxil edilir. Lakin bununla belə praktiki olaraq hər bir sorğu alətində əsasən aşağıdakı parametrlər əksini tapır:

- cinsi;
- yaşı;
- milliyyəti;
- ailə vəziyyəti;
- təhsili;
- məşğuliyyəti;
- dini mənsubiyyəti;
- irqi mənsubiyyəti;
- siyasi mənsubiyyəti */partiyalığı/;*
- əmlakı;
- gəlirləri.

Suallar çələngi açıq, qapalı, birbaşa və dolayı cavablar şəbəkəsinə malikdir. Açıq sualları respondent öz sözləri ilə ifadə etməlidir. Qapalı suallar isə konkret cavablar sisteminə malikdir. Buna görə də respondent cavab sistemində təqdim olunan məhdud variatlar üzrə hərəkət etmək seçimindədir. Qapalı suallar emal və təhlil prosesində çətinliklər yaratmır və tədqiqat prosesinin vaxt faktorunu gödəldir. Birbaşa suallar əsas hədəfi nişan götürür, dolayı suallar isə əsas məqsədə nailolmada vasitəçi funksiyasını yerinə yetirir. Suallar forması yazılı, şifahi, əyani vəsaitlər, sxem, foto, şəkil, illiyustrasiya və digər formatlarda təşkil olna bilər.

Respondent əmin olmalıdır ki, proses onun vaxtını çox almayajaq. Sorğu prosesinin effektivliyini artıran jəhətlərdən biri də onun hansı deviz altında keçirilməsidir. Deviz seçimi tədqiqatın ən ümdə vəzifələrini əks etdirərək, müasir və həyati tələblər ahənginə uyğun məzmun daşımalıdır.

Sorğu prosesinin vasitə və alətlər sistemi təyin edildikdən sonra mühüm mərhələ kimi anketin hazırlanması prosseduru formalaşır. Anket formatının və dizaynın sorğu prosesində məxsusi yeri vardır. Belə ki, pis tərtib olunmuş blank respondentin sorğuya münasibətinə təsir edə bilər. Digər tərəfdən tədqiqatçı anket formatında yalnız respondent zövqünü təmin etməməlidir.

## V. SORĞU ANKETİNİN TƏRTİBATI

Anket tərtib etməklə aparılan sorğu geniş yayılmış sorğu formasıdır. Bunun üçündə onun tam qammanı əhatə edən çevrədə tərtib edilməsi olduqqja mühüm sorğu əməliyyatı hesab edilir. Anketin köməyi ilə lazım olan məlumatların toplanması reallaşdırılır.

Anket sorğusunun hazırlanmasında aşağıdakı məsələlər araşdırılır:

- tədqiqatın probleminin ifadə edilməsi, obyekt, subyekt və predmetinin müəyyənləşdirilməsi;
- tədqiqatın məqsəd və vəzifələrinin müəyyənləşdir-ilməsi;
- tədqiqatın strateci və işçi planının tərtib edilməsi.

Struktur düzümdə anket aşağıdakı ardıcıllığı ifadə edir:

- giriş hissəsi;
- əsas hissə;
- demoqrafik hissə */pasportja/.*

Anket soğusunda giriş hissəsində respondenti tədqiqatın məqsədini və onun bu prosesdə iştirakını maraqlı edən məqamlar şərh olunur. Buna görə də sorğunun blankının giriş hissəsi cəlbediciliyi təmin etməli və respondentlə mehriban münasibətlərin qurulmasına zəmin yaratmalıdır. Anketdə əksini tapan suallar şəbəkəsi adətən üç əsasda: məzmun, forma və funksiyasına görə fərqləndirilir.

Məzmununa görə anket sualları şərti olaraq iki qrupa ayrılır:

- keçmiş və indiki zamanlardakı faktlar, davranış və fəaliyyət məhsulları haqqında suallar;
- fərdin motivləri, qiymətləri və rəyləri haqqında suallar.

Birinci qrupdan olan suallar vasitəsi ilə tədqiqatçı rəyi soruşulan, onun nələri bildiyi və yadda saxladığı haqqında obyektiv məlumat toplayır. Bu qrupa həmçinin rəyi soruşulanın bioqrafik və demoqrafik statusunun müəyyənləşdirilməsinə yönəlmiş sualları da aid etmək olar. Ümumi görünüşü aydınlaşdıran bioqrafik suallarında sorğuda əhəmiyyəti yetərlidir. Adətən bu tip suallar şəxsi xarakter daşıyır və anketin sonunda təəssüratları artırmaq üçün yazılır. Respondent əsas olmayan bu tip suallardan yayınmaq iqtidarlıdır.

İkinci qrupa daxil olan sualların köməyi ilə o, rəyi soruşulanın nələri düşündüyü, bu və ya digər bir obyekt haqqında rəyi, nə etmək istədiyini və bunun səbəbi haqqında məlumat əldə edir. Əsas suallar kimi səciyyələndirilən bu qrup

məntiqi baxımdan sorğu prosesinin nüvəsini təşkil edir. Bundan başqa anketə neytral səciyyəli, impulsverici sualların salınması da az əhəmiyyət daşımır. Belə suallar əsas sualların dolğun cavablandırılmasında əks olunur.

Anketdə elə aktual suallar göstərilməlidir ki, alınan cavablar məhz tədqiqatın qarşısında duran əsas məsələlərin həlli üçün əsaslı olsun. Anket, sualların xaotik yığımında deyil, müəyyən sistemləşmiş tərzdə xronoloci ardıcıllıqla qurulmalıdır. Sualların məzmun və mahiyyəti, ifadə forması, dil, konseptual səviyyə və sistematik məna jəhətdən respondent üçün asan anlaşılan, onun bilik və təhsilinə müvafiq tərzdə tərtib edilməli, sualların ifadəsi rəyi soruşulanların cavabvermə imkanlarına müqabil olmalıdır. Anketin sualları yalnız sabit cavablarla kifayətlənməməli, bununla bərabər həm də məhz tədqiqatçının əldə etmək istədiyi məlumatların alınmasını təmin etməlidir. Yalnız bu halda anket sosioloji tədqiqat üçün tam yararlı hesab edilə bilər.

Suallar təşkil edilərkən tədqiqatçı sorğu vərəqəsinin tərtibi ilə bağlı bir sıra müvafiq ümumi tələbləri də nəzərə almalıdır. Konkret olaraq:

- sorğu nəticələrinin etibarlılığını və səhihliyini artırmaq məqsədi ilə hər hansı bir mövzu üzrə bir neçə sualın verilməsi yeganə bir sualın verilməsindən daha yaxşıdır. Bu üsul murəkkəb problemlər tədqiq edilərkən əhəmiyyətlidir;
- respondentdən irəli sürülən fikirlə razılıq formasında cavab tələb edən dixotomik suallardan istifadə edilərkən təsdiq formalarını növbələmək çox vacibdir. Belə tədbirlər bəzi respondentlərdə yaranan yalnız «Bəli» və ya yalnız «Xeyr» cavabını vermək adətini aradan qaldırmaq məqsədini güdür;

- mənaca vahid mövzu çərçivəsində suallar seriyası elə planlaşdırılmalıdır ki, respondent tədrijən şüurlu surətdə ən ümumi və açıq suallardan daha spesifik və konkret suallara keçsin;
- anketdə toxunulan mövzuların ardıcıllığı elə qurulmalıdır ki, respondentdə anketin bütöv, tam və düşünülmüş, mənalı olduğu haqqında təsəvvür yaransın;
- mövzudan mövzuya keçid tədrici və rəvan olmalı, anketin mənaja müxtəlif hissələri arasında heç bir kəskin keçid və fərq qoyulmamalıdır. Bir mövzudan digərinə keçidlərdə mütləq bir neçə ya tamamilə neytral, ya da ki, toxunulmuş mövzular arasında əlaqəni aydın göstərən sual yerləşdirmək lazımdır.

Anketlər tərtib olunduqdan sonra müvafiq işçi qruplarına paylanılır. Sorğunun 100 nəfərdən 500 nəfərə qədər respondenti əhatə etməsi səmərəli nəticəlilik baxımından məqsədəuyğun sayıla bilər.

## VI. PLANLAŞDIRMA VƏ SEÇİM DÜZÜMÜ

Forma və məzmunun müvəffəq düzülüşünə nail olduqdan sonra sorğu prosesinin çox mühüm səciyyə daşıyan seçim və planlaşdırma mərhələsi yetişir. Planlaşdırma mərhələsi aşağıdakıları əhatə edir:

- sorğu tipinin müəyyən olunması qərarın qəbulu;
- material-texniki təhcizat problemlərinin həlli;
- maliyyələşmə ilə bağlı vəzifələrin yerinə yetirilməsi.

Tədqiqat probleminin xarakterini hansı sorğu tipinin mümkünlüyi və zəruriliyi təyin edir. Sorğu praktikası əsasən aşağıdakı tipik formatlı təsnifatda təşəkkül tapmışdır:

- əyani müsahibə;
- telefonla müsahibə;
- poçtla anket göndərişli;

- mətbuat vasitəsi ilə sorğu;
- elektron sorğu.

***Əyani müsahibə*** ən imkanlı və elastik sorğu prosesi tipidir. Bu proses respondentlə geniş diapazonda təmaslı ünsiyyətin qurulmasını təmin edir və daha çox informasiyanın əldə edilməsinə zəmin yaradır. Burada informasiyaların əldə edilməsinin sürəti də yüksəkdir. Bununla belə bu tip sorğu müəyyən qüsurlardan da azad deyildir. Burada qüsur hesab ediləjək faktor ilk növbədə onun təşkilati xərjlərinin bahalığında ehtiva olunur. Digər tərəfdən bu proses həm də təhriflərin izafi mümkünlüyü ilə müşaiyyət olunandır. Belə ki, burada respondentə təsir edən şərait real dunyanı dolğun əks etdirən informatik məlumat imkanlarını məhdudlaşdıra bilər.

***Telefonla müsahibə*** əyani və poçtla anket göndərişli sorğu arasında bir sıra nisbətlərdə aralıq mövqe tutur. Burada sürət əyani sorğudan yüksək, poçtla anket göndərişli sorğudan isə kiçikdir. Digər tərəfdən nəzərdən keçrilən bu müsahibə metodikası əlavə resur təyinatlıdır. Telefonla müsahibə aparan peşəkar təşkilat bahalı kompyuter avadanlıqları almağa məhkumdur. Bahalı texnika amili ondan irəli gəlir ki, məhz kompyuter və kompyuter texnologiyaları vasitəsi ilə aparılan sorğu prosesi daha mükəmməl təşkiledilmə imkanı yaradır və bu zaman nəzarət sistemi informasiyaların emalına daha optimal yardım etmiş olur.

***Poçtla anket göndərişli*** sorğu tipi ən ujuz prossedur hesab edilir. Məhdud xidmətedici personallı bu sorğu prosesində sorğu aləti ilə bağlı bir sıra problemlər qaçılır və respondentin jabavları daha təsbitli olur. Belə ki, bu zaman respondentin jabab vermək üçün vaxt imkanları genişdir və buradakı anonimlik prioriteti həqiqətləri daha dolğun əks etdirməyə zəmin yaradır. Poçtla anket göndərişli sorğu daha standartlı olaraq təkralılıq istisnalırını məhdudlaşdırır, emal prosesini asan və sürətli edir. Bütün bu özəlliklər poçtla anket göndərişli sorğu prosesinin daha az məsrəfli olmasını

fərqləndirir. Bütün keyfiyyət çalarları ilə yanaşı poçtla anket göndərişli sorğu qüsurlardan da istisna deyildir. Ən başlıca nöqsanlı an burada sorğu vərəqənin vahidobrazlı və daha çox standartlılığı ilə bağlanılır.

***Mətbuat vasitəsi ilə sorğu*** prosesi qəzet və curnallarda oxuju rələri əsasında aparılır. Bu sorğu eksklyüziv tiplidir və onun məhsuldarlığı oxuju aktivliyi, məhdud kontingentdə əhatə sferasi ilə bağlılığındadır. Sürət və vaxt imkanları da məhduddur. Lakin populyar mətbuat nəşrləri ijtimai rəyi öyrənmədə daha imkanlı üstünlüklər əldə edirlər.

***Elektron*** və yaxud onlayn sorğu muasir zamanda populyarlıq qazanmışdır. İnternet şəbəkəsinin əksər veb saytlarında bu tip mini sorğu anketi verilir. Onlayn metodunun üstünlüyü elektron anket formasının sadəliyi və informasiyanın alınması tezliyindədir. Bununla belə sorğulanan sualları vaxt baxımından istənilən an cavablandırmaq olar. Bu metodika da şəxsi kontaktların yaradılmaması həlqəsi ilə qüsurlu sayılır.

Rəyi soruşulanlarla ünsiyyət üsulundan asılı olaraq tədqiqatçı ilə respondent arasında bilavasitə rabitənin baş verdiyi əyani sorğu ilə yanaşı həmçinin birbaşa ünsiyyətin olmadığı distant sorğu mövcuddur. Şifahi, əyani sorğu müsahibə, yazılı və distant sorğular isə anket formalı sorğu tipinə aid edilir.

Sorğu tipinin müəyyənləşdirilməsi və təyinatından sonra planlaşdırmanın növbəti mərhələsində tədqiqatçı səylərini maliyyə problemlərinin həllinə səfərbər edir. Maliyyə problemləri başlıca olaraq sponsorun maraqları diapazonunda həllini tapır. Tədqiqatın aktuallığı və praktiki əhəmiyyəti maliyyə resurslarının daha geniş həjmdə istifadəsi üçün başlıca amildir.

# VII. TƏLİMATLANDIRMA: PERSONALIN TRENİNQİ VƏ İLKİN TESTLƏNDİRMƏ

Treninq və təlimatlandırma sorğu prosesinin mühüm və əhəmiyyətli məqamlarındandır. Personalın keyfiyyətli treninqi əlavə maliyyə vəsaitləri tələb edir. Treninq və təlimatlandırma sorğu prosesində optimal nəticəliyə təminat verən başlıca prossedur şərtlərdəndir. Keyfiyyətli sorğu prosesinin aparılması üçün praktikada intervyuyerin aşağıdakı atributlarla təchiz olunması nəzərdə tutulur:

- məxsusi qovluq;
- sorğu keçirəcək rayonun xəritəsi;
- respondentin sorğu haqqında məlumatlandırılması tələbli müvafiq tövsiyyə məktubu;
- sorğunun hüquqi təminatlığını əks etdirən sənəd;
- tələb olunan digər əyani vəsaitlər;

Praktiki jəhətdən əsaslandırılmış anketin tərtibində tamamlayıcı və zəruri mərhələ sualların ifadə formasının keyfiyyətini, onların düzgün təşkil olunduğunu yoxlamaq məqsədini güdən sınaq tədqiqatının keçirilməsi təşkil edir.

İlkin testləşdirmə adlanan bu mərhələ ehtimal edilən problemlərin önjədən nəzərə alınmasına kömək edən mühüm sorğu prossedurudur. Bu prossedur geniş olmayan, lakin sorğu qammasını daha dolğun ifadə edən əhali qruplarının təmsilçiləri olan respondentlər arasında aparılır. Bu zaman tərtib olunmuş anketlər sınağa çəkilir, onlara edilən ilk reaksiyalar təftişə məruz qalır.

Sınaq sorğusu tədqiqatın zəruri mərhələsidir və bütövlükdə sorğu prosesinin uğuru da ondan asılıdır. Bununla belə, sınaq sorğusuz da anket sorğusu aparmaq mümkündür. Sosioloq və politoloqlar tamamilə yeni oriyentasiyalı tədqiqatlar apardıqları zaman pilotaj xüsüslu testləşməni yerinə yetirməlidirlər. Pilotaj tədqiqat məhz genişmiqyaslı layihələrin gerçəkləşdirilməsində son dərəcə əhəmiyyəti ilə fərqlənir.

## VIII. SORĞUNUN KEÇİRİLMƏSİ VƏ MONİTORİNQİ

İlkin hazırlıq işlərinin tamamlanması sorğunun keçirilməsinə başlanğıcı təmin edir. Sorğunun keçirilməsi proses silsiləsinin nüvəsini təşkil edir. Məhz bu prosesdə lazımı informasiyaların toplanması baş verir. Sorğu prosesində intervyuyer respondentlə təmaslar qurur və tədqiqat sualların cavablandırılması əməliyyatı həyata keçirilir. Sorğu prosesinin aparılması monitorinq və yoxlanış-nəzarət prossedurları ilə eyni şəbəkədə qurulur və reallaşdırılır.

Monitorinq və ya sorğunun keçirilməsinin müşahidəsi prosesin nəticəliyini artıran prossedurdur. Bu prossedur qeydiyyat mükəmməlliyini nəzarətə alır, informasiyaların emalına və məlumatların verifikasiyasına yardımçı olur.

Nəzarət yoxlanışı və ya verifikasiya monitoriqdən fərqli olaraq daha çox intervyuüerin fəaliyyətini nəzarət altına götürür. Prossedurun köməyi ilə nəticələrin təhrif olunmasının qarşısı alınır, informasiya həqiqiliyi və dolğunluğu təmin edilir. Verifikasiya zamanı adətən məlumatların səhihliyini araşdırmaq üçün müəyyən qrup respondentlərlə təkar görüşlər keçirilməsi aparılır və mümkün müqayisələr edilir. Daha çox genişmiqyaslı sorğularda verifikasiya prosesinin keçirilməsi zəruri hesab edilir.

## IX. KODLAŞDIRMA VƏ EMAL

Sorğu keçirildikdən sonra sorğu məlumatları emal edilir, kodlaşdırılır və təhlil üçün hazırlanır. Kodlaşdırma məsuliyyətli mərhələdir. Alınan məlumatların doğru və reallığı kodlaşdırmanın keyfiyyətindən asılıdır. Burada vacib şərtlərdən biri də kodlaşdırıcının əməyini rahat edən sistem qurujuluğuna da nəzərin yetirilməsidir. Öncədən sorğu alətinin kodlaşdırılması və müvafiq təlimatlandırmanın keçirilməsinin

müəyyən üstünlükləri vardır. Bu üsünlüklər ilk növbədə müsahibənin qısaldılmasında səciyyələnir. Kodlaşdırmanın başlıca funksiyası emal prosesinin rahatlığına xidmət edir.

Kodlaşdırma prosesi nəticə etibarı ilə səmərəli emalla kompozisiya təşkil edir. Emal prosesində kodlaşdırılan informatik indikatorlar açıqlanır və təhil olunmaq üçün hazırlanır.

## X. SORĞU MƏLUMATLARININ TƏHLİLİ VƏ HESABATIN HAZIRLANMASI

Təhlil prosesində qarşıya qoyulan məqsədlərə nailolunma müəyyənləşdirilir və müvafiq nəticələr təsbit olunur. Nəticələr tədqiqat probleminin bir daha aktuallığında ifadə olunaraq tədqiqatçını aprobasiya informasiyaları ilə təjhiz edir. Təhlil prosesində qarışıya qoyulan məqsədə müvəffəqolmanın dərəjəsi müəyyən edilir. Təhlil prosesi son olaraq aparılan sorğunun hesabatlandırılmasını şərtləndirir. Hesabat aktı məqsəd və nəticəlik harmoniyasında tərtib olunur. Sorğunun əhəmiyyəti, aparılan prosesin səmərəliliyi, məqsədlərə nailolma səviyyəsi və başlıca olaraq sorğu məhsulunun hazırlanması hesabat aktında əksini tapır.

Sorğu prosesinin nəticələri təkrar yoxlanışa da məruz qala bilər. Burada məqsəd heç də onun kamilliyinin təftişi ilə bağlı deyildir. Bu tədqiqatçının əlavə material yığımı üçün şəxsi motivli prosesdir. Konkret olaraq sorğu məlumatların digərləri tərəfindən öyrənilməsi məqsədi təkrar təhlil aparılır. Bu təhlil eyni zamanda sorğu prosesində kölkədə qalmış bir sıra göstəricilərin aşkarlanmasına, sorğu məlumatlarının geniş tədqiqat proseslərində istifadəsinə kömək məqsədi daşıyır.

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI

1.Azərbaycan Respublikasının Konstitusiyası. Bakı. 1997.
2.Azərbaycan Respublikasının Milli Məclisinin qanun və qərarlar toplusu. Bakı. 1991-2003-cü illər.
3.Андреева Г.М. «Социальная психология». Мю: Аспект-Пресс. 1996.
4.Белановский С.А. «Сравнительный анализ свободного и формализованного интервью в социально-экономических исследованиях». М.: Политиздат, 1989.
5.Белнап Н., Стил Т. «Логика вопросов и ответов». М.: Политиздат. 1981.
6.Quliyev R.M. «Sosiologiya: nəzəriyyə və tədqiqat metodologiyası». Bakı. 1995.
7.Горшков М.К., Шереги Ф.Э. «Как провести социологическое исследование». М.: Политиздат. 1985.
8.Козырев А.А., Юдин А.П. «Инфармационные технологии в экономики». Спб.: Издательство Михайлово. 2000.
9.Лавриненко В.Н., Нартов Н.А., Шабанова О.А. «Социология» М.: ЮНИТИ 2000.
10.Тейл.Г. «Экономические пргнозы и принятие решений». М.: Статистика. 1991.
11.Штомпка П.П. «Социология социальных изменений». М.: Аспект-Пресс. 1996.
12.Ядов В.А. «Социологическое исследование: методология, программа, методы». Самара: Самарский университет. 1995.

Yığılmağa verilmişdir: 15.07.2003. Çapa hazırlanmışdır 27.07.2003.
Həcmi 2 ç.v. Sayı 200. Ofset üsulu ilə çap edilmişdir.

Azərbaycan Dövlət İqtisad Universiteti.